Azərbaycanın tarixində, mədəniyyətində, ədəbiyyatında, qəhrəmanlıq səhifələrində qadınların adı qırmızı xətt kimi keçir, bu zərif, incə məxluq ana missiyasını şərəflə, qeyrətlə, namusla, vicdanla yerinə yetirib. Həyatın bütün sahələrində mübariz ruhu ilə çalışan, ailəsinin, övladlarının keşiyində dayanan, onların yolunda ömrünü şam kimi əridən, evinin, ailəsinin üzərinə şəfəq saçan, dar günlərdə belə həyat yoldaşı ilə çiyin-çiyinə dayanan qadınlar həmişə ehtirama və hörmətə layiq olublar. Cəmiyyətdə rəğbət və nüfuz qazanıb, ailə şərəfini ləyaqətlə qoruyublar. Azərbaycan xalqının ilk maarifçi qadınlarından olan Hənifə Məlikova-Zərdabi də milli mədəniyyət tariximizdə adı ehtiramla yad edilən qadınlardan biridir.



# Vətən, millət, maarif təəssübkeşi

## Mayın 6-sı ziyalı, xeyriyyəçi, sədaqətli xanım Hənifə Məlikova-Zərdabinin doğum günüdür

Hənifə xanımın həyat yolu asan olmayıb, çətin və ağrılı günlər onun taleyində dərin iz qoyub. Hənifə Məlikova (Hənifə Aslanbəy qızı Abayeva) 1856-cı il mayın 6-da Quzey Qafqazda Nalçik şəhərində anadan olub. Tiflisdə Müqəddəs Nina Qız Məktəbində 10 il təhsil alıb. Qeyd etmək lazımdır ki, o zaman müsəlman qızların xristian ölkəsində təhsil alması çox nadir hadisə idi. Lakin Hənifə xanımın atası, yüksək təhsilli hərbçi Aslanbəy Abayev iki qızının da erkən yaşlardan təhsilinə ciddi önəm vermiş, böyük qızı, 10 yaşlı Paşaxanla birlikdə 8 yaşlı Hənifəni Müqəddəs Nina Qız Məktəbinə yazdırmışdır. Xəstə anasına qulluq etdiyi üçün Paşaxan Tiflisə gedə bilmədiyindən onun yerinə Fuza Şakmanova adlı qız Hənifə xanımla birgə təhsil almağa göndərilmişdi. Bu iki qız Müqəddəs Nina Qız Məktəbinin ilk türk, müsəlman qız məzunları olmuşlar.

Hənifə xanım xatirələrində yazırdı ki, 1872-ci ildə Tiflisdə Müqəddəs Nina Qız Məktəbini bitirən qızların siyahısı "Qafqaz" qəzetində dərc olunduqdan sonra adımı burada görən Həsən bəy Zərdabi təhsilli bir qızla ailə qurmaq istəyi ilə dərhal Tiflisə yola düşür. Hənifə xanımla tanışlıqdan sonra onunla həmfikir olduğunu başa düşən Həsən bəy onunla birgə həyat yoluna çıxmağa qərar verir. 1872-ci ildə qurulan ailə bağları əqidə, fikir dostluğu, çətin günün həmdəmliyi ilə daha da möhkəmlənir. Pəri, Qəribsoltan adlı iki qızı və Midhət, Səffət adlı iki oğlu olan ailə, Azərbaycan övladlarının təhsilinə, təlim-tərbiyəsinə himayədarlıq etmişdir. Qaynaqlarda göstərilir ki, Hənifə xanımla Həsən bəy övladlarının dördünə də yüksək təlim-tərbiyə vermişdir - bu ocağın uşaqları Almaniyada, Rusiyada ali təhsil almış, Azərbaycanın layiqli aydınları olaraq yetişmiş, vətənə xidmət etmişlər. Ailənin böyük qızı Pəri xanım ailəsi ilə birlikdə Vətəndən uzaqlarda mühacir ömrü yaşamaq məcburiyyətində qalmışdır. Pəri xanım 1947-ci ildə mühacirətdə olduğu Fransada dünyasını dəyişmiş, Paris yaxınlığında Sen-Klu məzarlığında, vəfalı dostu və həyat yoldaşı Əlimərdan bəy Topçubaşovun yanında dəfn edilmişdir. Hənifə xanımın digər qızı Qəribsoltan ailə həyatı qurmamış, ömrünü maarifə, elmə həsr etmiş, Azərbaycanın Əməkdar müəllimi kimi ata-anasının yolunu şərəflə davam etdirmişdir. Ailənin böyük oğlu Midhət bəy Məlikov Lənkəranda öz hesabına Xanbulançay üzərində su elektrik stansiyası qurmaq istəyində olmuş, elə buradaca iş başında ikən qolları qandallı Bakıya gətirilib güllələnmişdir... Kiçik oğul Səffət bəy ixtisasca memar olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin İstanbuldakı konsulluğunun əməkdaşı kimi Türkiyədə siyasi fəaliyyət göstərmiş və ömrünün sonunadək qardaş ölkədə yaşamışdır.







Bu ziyalı, sədaqətli və dəyanətli xanım millətin və ailəsinin yolunda böyük fədakarlıq göstərmişdir. Dövrün üsulidarəsinin basqıları qarşısında geri çəkilməyən Hənifə Məlikova 16 il əri ilə birlikdə Zərdabda polis nəzarəti altında yaşamışdır. Hənifə xanım Həsən bəy Zərdabinin - Rusiya çarından ana dilimizdə qəzet çapı üçün icazə almağı bacaran, Azərbaycan mədəniyyətini ilk mətbu orqanı ilə taclandıran, millətimizin maariflənməsi yolunda böyük fədakarlıqlar göstərən, "Əkinçi" qəzeti ilə mədəniyyət və ədəbiyyatımızın yolunda mayak olan görkəmli bir ictimai xadimin həyat yoldaşıydı. "Pul yox, yazıçı yox, çapxana yox, hürufat yox, əmələ yox, bir-iki yüzdən artıq da oxuyan olmayacaq. Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır" deyən Həsən bəy Zərdabinin bütün bu çətinliklərin öhdəsindən gəlməsində Hənifə xanımın böyük mənəvi dəstəyi olmuşdu. O, 1875-1877-ci illərdə Həsən bəylə birlikdə "Əkinçi" qəzetinin nəşrinə bütün gücü ilə əmək sərf etmiş, maddi-mənəvi sıxıntılara, ictimai təzyiqlərə qarşı ömür-gün yoldaşı ilə birgə mübarizə aparmışdı. Gözəl, nəcib, sədaqətli və dəyanətli Hənifə xanım millətimizin və ailəsinin yolunda böyük fədakarlıqlar göstərmişdir. O, Həsən bəy Zərdabiyə təkcə həyat yoldaşı yox, həm də əqidə, məslək, düşüncə, mübarizə yoldaşı idi. Bakıda ilk qız məktəbinin yaradıcısı kimi tarixə düşən Hənifə Məlikova 1901-1905-ci illərdə Bakıda ilk müsəlman qız məktəbinin müdiri işləmişdir. 1909-cu ildən 1919-cu ilədək Bakı şəhər dövlət birinci rus-tatar qız məktəbində müdir vəzifəsində çalışan Hənifə xanımın təşəbbüsü ilə 1908-ci ildə Bakıda "Nicat" cəmiyyətinin bir şöbəsi kimi "Bakı xanımlarının ilk təşkilatı" yaradılmışdır. Bakı milyonçularından Murtuza Muxtarovun həyat yoldaşı Liza Tuqanovanın sədrlik etdiyi təşkilat tezliklə böyüyüb Bakı Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinə çevrilmişdir. Hənifə xanım öz evində uşaqlara dərs deməklə yanaşı, kənd-kənd, ev-ev gəzib qadınlara dərzilik, yazıb-oxumaq öyrədir, rus dilindən nağıllar tərcümə edib danışır, uşaqları peyvənd edir, qadın məsləhətxanaları təşkil edirdi.

Onun həyatı çətin sınaqlar, hətta bəzən təqiblər, təzyiqlər altında keçsə də, bir an belə öz missiyasını unutmamış, xalqı cəhalətdən xilas etmək, təhsilli insanların sayını artırmaq yolunda inadlı mübarizəsindən çəkinməmişdir.

Bir pedaqoq, maarifçi ziyalı kimi böyük hörmət və nüfuz qazanmış Hənifə xanım dövrünün sayılıb-seçilən şəxsiyyətlərindən idi. 1920-1926-cı illərdə Azərbaycan Xalq Maarif Komissarlığında məsul vəzifədə işlədiyi vaxtlarda da bu məqsədi həyata keçirmək üçün bütün qüvvəsi ilə çalışır, daha çox türk-müsəlman qadını təhsilə cəlb etmək istəyirdi. Milli təhsilimizin inkişafından söz düşəndə Hənifə xanımın adı böyük ehtiramla yad edilir. Hənifə xanım xatirələrində yazırdı: "Həyatımın məqsədi - bacardığım qədər avam kütlənin, xüsusən də qadınların hüquqları və istismara qarşı mübarizədə türk qadınlarının mədəni səviyyəsini qaldırmaq olmuş və olacaqdır. Düşünürəm ki, mən Sovet hakimiyyətinin proqramı ilə işləyirəm. Partiya ədəbiyyatını dərindən öyrənməyə vaxtım olmayıb. Mən partiyalılığı ancaq forma hesab edirəm, xoşbəxtəm ki, türk qadınının əsarətdən qurtarması üçün bütün perspektivlərin açıldığı dövrə kimi yaşamışam".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm-Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə "Hənifə Məlikova - Zərdabi adına təqaüd proqramı" yaradılıb. Respublikamızın 58 rayonu üzrə 265 tələbə qız bu təqaüd proqramından yararlanır. Azərbaycana aydın sabah, maarifçilik işığı bəxş etmək missiyası üçün dünyaya gələn, sədaqətli ömür-gün yoldaşı, gözəl ana Hənifə xanım Məlikovanın həyat yolu nəsillər üçün parlaq örnəkdir. Həsən bəy Zərdabinin, bu millət fədaisinin, tərəqqi aşiqinin bu dünyası kimi o dünyası da məşəqqətli olub. Zehni və əməli milləti üçün bir çırağa dönmüş bu insanın sönmüş cəsədi Vətən torpağında 3 dəfə dəfn olunub. Hənifə Məlikova-Zərdabi 1929-cu ildə Bakıda vəfat edib, şəhər qəbiristanlığında dəfn olunub, sonralar cənazəsi Fəxri xiyabanda həyat yoldaşı H.Zərdabinin məzarının yaxınlığına köçürülüb. İşıqlı ruhuna salam olsun!

**Salman ALIOĞLU,**
**"Respublika".**